# ASTARANIN DAHA BİR KƏNDİNDƏ MAVİ ALOV ŞÖLƏLƏNMİŞDİR



Uzun illər idi ki, Züngüləş kəndinin sakinləri təbii qazın olmamasından əziyyət çəkirdilər. Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayevin əhali ilə keçirdiyi səyyar qəbul və görüşdə də vətəndaşlar əraziyə təbii qazın verilməsi barədə müraciət etmişdilər.

Qısa vaxtda kəndə qaz xətləri çəkilmiş, abonentlər üçün sayğaclar quraşdırılmışdır. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində kəndə təbii qazın verilməsi gerçəkləşmişdir. Züngüləş rayonun təbii qazdan istifadə edən 32-ci kəndi olmuşdur.

Züngüləşdə 126 təsərrüfat vardır. Kənddə min nəfərə yaxın əhali yaşayır. Kənddə əsl bayram ovqatı hiss olunurdu. Sakinlər sevinc, fərəh içində idilər.

Açılış mərasimində Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, icra aparatının rəsmiləri, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, qaz istismarı idarəsinin işçiləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Tədbiri Səncərədi inzibati dairəsi üzrə icra nümayəndəsi Zaur Həsənov açaraq təbii qazın verilməsini bayram hədiyyəsi kimi qiymətləndirdi. Sakinlərdən Müzəffər İmaməliyev, Ağaxan Novruzov, Adilə Əliyeva və başqaları çıxış edərək rayonun abadlaşdırılmasına, əhalinin sosial problemlərinin həllinə göstərdiyi yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə sonsuz minnətdarlıqlarını bildirdilər.

Rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev kənd sakinlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Yeni ilin gəlişi və əraziyə təbii qazın verilməsi münasibətilə təbrik edərək onlara ən xoş və səmimi arzularını söylədi.

İcra başçısı rayonda əhalinin 75 faizinin təbii qazdan istifadə etdiyini diqqətə çatdırdı, Astarada regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurla icra olunduğunu, ayrı-ayrı yaşayış məntəqələrinə yolların, qaz və su xətlərinin çəkildiyini, Züngüləş kəndi ərazisində "Astara-1" su elektrik stansiyasının tikildiyini, Artupa kəndində yeni məktəb binasının inşasına başlanıldığını, digər sosial problemlərin həll olunduğunu bildirdi.

Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdiriləcəyi, yeni ildə bir sıra sosial layihələrin həyata keçiriləcəyi qeyd olundu.

İcra başçısı ölkə Prezidentinin sərəncamı ilə Deqədi-Pəlikəş istiqamətində ucqar dağ kəndlərinə avtomobil yolunun tikintisi məqsədilə vəsaitin ayrılmasını Astaranın sosial-iqtisadi inkişafına göstərilən dövlət qayğısının əyani nümunəsi kimi dəyərləndirərək rayon sakinlərinin cənab Prezidentə dərin minnətdarlığını ifadə etdi.

Sonra Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev kəndə təbii qaz verilməsini bildirən məşəli yandırdı.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**